***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi***
***gömrük orqanlarına xidmətə qəbul olmaq istəyən***
***Azərbaycan Respublikasının vətəndaşları üçün müsabiqə elan edir***

Dövlət Gömrük Komitəsi gömrük orqanlarına xidmətə qəbul olmaq istəyən Azərbaycan Respublikasının vətəndaşları (bundan sonra – vətəndaşlar) üçün növbəti **müsabiqə elan edir.**

Gömrük orqanlarında vakant vəzifələrin tutulması ilə bağlı müsabiqədə iştirak etmək üçün müvafiq ali təhsilə malik, vəzifənin tutulması şərtlərinə cavab verən və qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçmiş vətəndaşlar müraciət edə bilər.

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768–IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə əsasən aşağıda qeyd olunan şəxslər gömrük orqanlarında xidmətə qəbul *edilmir*:

1. yaşı 30-u keçmiş vətəndaşlar;
2. Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar;
3. ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən fiziki və əqli pozuntularına görə gömrük orqanlarında işləməyə qadir olmayan, gömrük, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər.

Vətəndaşlar gömrük orqanlarına xidmətə qəbul olunarkən təqdim edilmiş sənədlər və məlumatlar qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin 2022-ci il 13 dekabr tarixli 1000/284 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə müsabiqə vasitəsilə qəbul qaydaları haqqında Təlimat"ın 9.8-ci bəndinə əsasən namizəd bu Qaydalarla müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə yanlış məlumatların verilməsi aşkar edildikdə, namizədin test imtahanında və (və ya) müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

**Müsabiqəyə təqdim edilən vakant vəzifələr:**

- Naxçıvan Baş Gömrük İdarəsi, Skanlaşdırma şöbəsi, inspektor (1 yer)
- Naxçıvan Baş Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, müstəntiq (2 yer)
- Naxçıvan Baş Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, əməliyyat müvəkkili (1 yer)
- Naxçıvan Baş Gömrük İdarəsi, "Naxçıvan Karqo Terminal" gömrük postu, inspektor (1 yer)
- Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, “Naxçıvan Beynəlxalq Hava Limanı” gömrük postu, inspektor (2 yer)

- Mərkəzi Gömrük Ekspertizası İdarəsi, Üzvi və qeyri-üzvi malların ekspertizası şöbəsi, ekspert (2 yer)
- Mərkəzi Gömrük Ekspertizası İdarəsi, Qida və kənd təsərrüfatı mallarının ekspertizası şöbəsi, ekspert (1 yer)
- Astara Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, əməliyyat müvəkkili
- Astara Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, təhqiqatçı
- Biləsuvar Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, əməliyyat müvəkkili (1 yer)
- Biləsuvar Gömrük İdarəsi, Hədəfləmə və koordinasiya bölməsi, inspektor (1 yer)
- Gəncə Gömrük İdarəsi, Rəsmiləşdirmə Mərkəzi, inspektor (2 yer)
- Gəncə Gömrük İdarəsi, Rəqəmsal inzibatçılıq bölməsi, inspektor (1 yer)
- Şərqi Zəngəzur Gömrük İdarəsi,"Qazançı" gömrük postu, inspektor (1 yer)
- Şərqi Zəngəzur Gömrük İdarəsi, Maliyyə və təchizat bölməsi, inspektor (1 yer)
- Xaçmaz Gömrük İdarəsi, Rəqəmsal inzibatçılıq bölməsi, inspektor (1 yer)
- Xaçmaz Gömrük İdarəsi, Skanlaşdırma şöbəsi, inspektor (1 yer)
- Xaçmaz Gömrük İdarəsi, "Samur" gömrük postu, inspektor (1 yer)
- Tovuz Gömrük İdarəsi, Metodoloji təminat bölməsi, inspektor (1 yer)
- Tovuz Gömrük İdarəsi, Əməliyyat və təhqiqat şöbəsi, təhqiqatçı (1 yer)
- Tovuz Gömrük İdarəsi, Maliyyə və təchizat bölməsi, inspektor (1 yer)
- Tovuz Gömrük İdarəsi, "Sadıxlı" gömrük postu, inspektor (1 yer)
- Tovuz Gömrük İdarəsi, "Qırmızı Körpü" gömrük postu, inspektor (2 yer)

Vakant vəzifələr haqqında ətraflı məlumatlarla buradan tanış ola bilərsiniz.

Vətəndaşlar qeyd olunan vakant vəzifələrdən yalnız biri üzrə müsabiqədə iştirak etmək üçün müraciət edə bilərlər.

Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqə test imtahanı və müsahibə mərhələlərindən ibarətdir. Müsabiqənin test imtahanı mərhələsində iştirak etmək istəyən vətəndaşların qeydiyyatı 2024-cü il may ayının 15-dən 30-dək aparılacaqdır.

Müsabiqənin test imtahanı **2024-cü il 9 iyun tarixində** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcəkdir.

Test imtahanı mərhələsində namizədlərə qanunvericilik üzrə 70, məntiqi təfəkkürün yoxlanılması üzrə 15, dünyagörüşü üzrə 15 olmaqla, ümumilikdə 100 test tapşırığı təqdim olunacaq. Hər doğru cavablandırılmış test tapşırığı 1 balla qiymətləndirilir. Səhv cavablar doğru cavabların nəticəsinə təsir göstərmir. Test imtahanında 80 və daha artıq bal toplayan namizədlər müsabiqənin müsahibə mərhələsində iştirak hüququ əldə edirlər. Test imtahanında iştirak edən namizədlərin imtahan nəticələri və Komitədə vakant vəzifələr nəzərə alınmaqla müsabiqə komissiyasının qərarı əsasında müəyyən edilmiş keçid balı aşağı salına bilər.

Namizədlər test imtahanına daha səmərəli hazırlaşmaları üçün aşağıda qeyd olunan test imtahanı proqramları və ədəbiyyat siyahısı ilə tanış ola bilərlər:

Test imtahanı proqramı və ədəbiyyat siyahısı

Test imtahanda iştirak etmək istəyən vətəndaşlar Dövlət İmtahan Mərkəzinin internet saytında (http://ekabinet.dim.gov.az) “Şəxsi kabinet”lərini yaratmalıdırlar (bax, “Şəxsi kabinet"in yaradılması və istifadə qaydası”). İmtahanda iştirak ödənişlidir. Namizədin imtahanda iştirak etməsi üçün ödənişin məbləği 82.60 AZN (ƏDV daxil olmaqla) təşkil edir. “Şəxsi kabinet”də olan pul hesabına bu vəsaiti daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat burada) istifadə etmək olar.

“Şəxsi kabinet” yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra test imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinin internet saytında “Azərbaycan Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat” elektron xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır.

Qeydiyyat zamanı vətəndaş haqqında ümumi məlumatlar (soyad, ad, ata adı, təvəllüd) "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi və vətəndaşın ali təhsili haqqında məlumatları "Tələbə-məzun" dövlət elektron məlumat sistemi vasitəsilə yoxlanılır.

Xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları qeydiyyatdan keçməkdən əvvəl Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən ixtisasın tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini təsdiq edən sənədləri əldə etməlidirlər.

Qeydiyyatdan əvvəl namizədlər təhsil haqqında məlumatlarının "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olub-olmadığını "Elektron hökumət" portalından Dövlət İmtahan Mərkəzinin "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti vasitəsilə də öyrənə bilərlər.

Sistemdə müvafiq məlumatlar olmadıqda namizədin qeydiyyatı aparılmır. Bu halda namizəd ona aid məlumatların "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi üçün bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir. Sistemdə məlumatları olmayan digər namizədlər Dövlət İmtahan Mərkəzinə (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi 299 və ya Dövlət İmtahan Mərkəzinin regional bölmələrinə) müraciət etməlidirlər.

İştirakçıların sayından asılı olaraq test imtahanı kağız daşıyıcılar vasitəsilə və ya xüsusi ayrılmış zallarda kompüter vasitəsilə elektron formada aparılacaqdır. Namizəd imtahana 3 – 4 gün qalmış imtahana buraxılış vərəqini çap etməlidir və göstərilən vaxtda və yerdə imtahanda iştirak etməlidir.

Test imtahanının nəticələri, test imtahanında müvəffəqiyyət əldə edən namizədlərin müsahibə mərhələsində iştirakı üçün tələb olunan sənədlər, habelə müsahibələrin vaxtı və yeri barədə Dövlət Gömrük Komitəsinin internet səhifəsində (www.customs.gov.az) məlumat veriləcəkdir.

Test imtahanın məzmunu ilə bağlı əlavə məlumat almaq üçün 012 404-22-00 (daxili 0118, 0125,0121,0127) nömrəli telefon vasitəsilə müraciət etmək olar.